Funded by the European Union

Mübahisələrin alternativ həlli və ixtisaslaşmış məhkəmələrə əlavə dəstək



İcra müddəti: 26.11.2020 - 26.01.2022

ŞT ölkələri:
Azerbaijan

Aİ-nin maliyyə yardımı: € 998 980

Ümumi büdcə: € 998 980

İcraçı təşkilat(lar):
ICE, ADR Center, EA

Layihənin təsviri:
Layihənin əsas məqsədi ədliyyə sistemində daha yaxşı xidmətlərin göstərilməsinə yardım etməklə vətəndaşlar və sahibkarlar üçün ədliyyədən yararlanma imkanlarının yaxşılaşdırılmasıdır. Layihə əsasən kommersiya və inzibati məhkəmə sisteminin effektivliyini və səmərəliliyini artırmağı, bu sahədə Ədliyyə Akademiyasının təlim potensialını gücləndirməyi, mediasiyanın həyata keçirilməsini dəstəkləməyi və arbitrajı təşviq etməyi hədəfləyir.

Gözlənilən nəticələr:
Layihə çərçivəsində əldə ediləcək nəticələr kommersiya və inzibati məhkəmələrin qanunvericilik və normative-hüquqi bazasının təkmilləşdirilməsi, Ədliyyə Akademiyasının qeyd olunan sahədə təlim potensialının artırılması və ixtisaslaşmış məhkəmələrin hakimlərinin və digər hüquqşünaslarının peşəkarlıq potensialının gücləndirilməsidir. Bununla yanaşı, mediasiya institutunun inkişaf etdirilməsi, arbitrajın və Beynəlxalq Ticarət Hüququ üzrə BMT Komissiyası ilə əməkdaşlığın təşviqi də gözlənilən nəticələr arasındadır.